Bir kişi Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) qiyamət haqqında soruşdu və dedi: Qiyamət nə vaxt olacaq? O, dedi: “Onun üçün nə hazırlamısan?”

Ənəsdən (Allah ondan razı olsun) belə rəvayət edilir: Bir kişi Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) qiyamət haqqında soruşdu və dedi: Qiyamət nə vaxt olacaq? O, dedi: “Onun üçün nə hazırlamısan?” O, dedi: “Heç bir şey, lakin mən Allahı və Onun Rəsulunu (Allahın salavatı və salamı onun üzərinə olsun) sevirəm. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: “Sən sevdiyin kəslə birlikdəsən”. Ənəs dedi: Biz, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) “Sən sevdiyin kəslə birlikdəsən” sözünə sevindiyimiz qədər heç bir şeyə sevinməmişdik. (Bunun ardınca) Ənəs dedi: Mən Peyğəmbəri (Allahın salavatı və salamı onun üzərinə olsun), Əbu Bəkri və Öməri sevirəm, onların əməlləri kimi əməl etməsəm də, onlara olan sevgimdən dolayı onlarla birlikdə olacağıma ümid edirəm.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Səhrada yaşayan bir bədəvi kişi Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) Qiyamət saatı haqqında soruşdu. Və O, (Allahın salavatı və salamı onun üzərinə olsun) ona dedi: Onun üçün hansı saleh əməllər hazırlamısan? Sual verən dedi: "Mən onun üçün heç bir böyük əməl hazırlamamışam, lakin mən Allahı və Onun Rəsulunu sevirəm" və o, bundan başqa qəlbi, bədəni və ya maddi ibadətlərdən hər hansı bir şeyi qeyd etmədi. Çünki bunların (bu ibadətlərin) hamısı sevgidən qaynaqlanan və nəticələnən qollardır və səmimi məhəbbət insanı yaxşı işlər görməyə çalışmağa sövq edir. O, (Allahın salavatı və salamı onun üzərinə olsun) ona dedi: Şüphəsiz ki, sən Cənnətdə sevdiyin kəslə birlikdə olacaqsan. Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) səhabələri bu müjdəyə çox sevindilər. Sonra Ənəs (Allah ondan razı olsun) Peyğəmbəri (Allahın salavatı və salamı onun üzərinə olsun), Əbu Bəkri və Öməri sevdiyini və əməlinin onların əməlləri kimi olmasa belə, onlarla birlikdə olmağı ümid etdiyini xəbər verdi.

http://www.sunnah.global/hadeeth/az/show/3087